***Dərgah Mehdiyev***

## ***Ağla, Xocalım, ağla!***

Sərvətlərin talandı,
Çeşmələrin bulandı,
İsmətin tapdalandı,
Ağla, Xocalım, ağla!

Bu nə dəhşət, ilahi,
Bu nə qarət ilahi,
Bu nə halət, ilahi,
Ağla, Xocalım, ağla!

Səni bada verdilər,
Sənə qada verdilər,
Səni yada verdilər,
Ağla, Xocalım, ağla!

Nələr çəkmədi başın,
Qədim torpağın, daşın,
Silmə gözünün yaşın,
Ağla, Xocalım, ağla!

Yurd qayıtsın özünə,
Nur ələnsin üzünə,
Sevinc dolsun gözünə,
Ağla, Xocalım, ağla!
Ağla, Xocalım, ağla!

***Mehdiyev D. Ağla, Xocalım, ağla! : şeir // Azərbaycan müəllimi. – 2010. – 23 fevral. – S.5.***